# *FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

## Müasir dövrdə şəxsiyyətin dəyərlər sisteminin formalaşmasına uşaq ədəbiyyatının psixoloji təsiri

**Nurəngiz Tofiq qızı Rzayeva**
*ADPU-nun Ümumi psixologiya kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** nurengiz.rzayeva@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. Ç.Q. Verdiyeva,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Acar sözlər:** uşaq, ədəbiyyat, dəyər, ağıl, dəyərlər sistemi, şəxsiyyət
**Ключевые слова:** ребенок, литература, ценность, ум, ценностные ориентация, личность
**Key words:** child, literature, value, sense, system of values, personality

Bəşəriyyət XXI yüzilliyin astanasında yenidənqurma, modernləşdirmə prosesini yaşayır. Muasir dünyada gedən qloballaşma prosesi cəmiyyətin inkişafında o cümlədən də insan resuzlarının idarə olunmasında önəmli problem kimi diqqəti cəlb edir. Özünəməxsus fəlsəfi-psixoloji çalarlarla əks olunan bu proses sosial–psixoloji hadisələrin genişlənməsi, informasiya texnologiyaların günbəgün geniş vüsət alması və bu konteksdə insan amilinin, ona münasibətin dəyişməsini tələb edir. Qeyd etmək lazımdır ki, insanın fiziki sağlamlığı təbii mühitlə şərtləndiyi kimi, əxlaqi-mənəvi durumda cəmiyyətin ümumi mənəvi atmosferi, mədəni-mənəvi meyarlar sistemi ilə də şərtlənir. Bu sistemdə özünün məzmun və mündəricəsi ilə seçimli olan və şəxsiyyəti şərtləndirən, dəyərlər eyni zamanda onların formalaşmasında yeri olan amillər də önəmlidir.

Dəyərlər insanların şəxsiyyətini xarakterizə etməklə, onlardakı davranış tərzini, hisslərini və təfəkkürünü formalaşdırıb idarə edirlər. İnsan dəyərlərin köməyi ilə özünün və başqalarının davranışına qiymət verir, fikirlərini əsaslandıra bilir və hərəkətlərini tənzimləyir. Dəyərlər insanın peşə seçimində, təhsil sahəsində, bir sıra pozuntuların qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Müasir psixologiya üçün aktual olan dəyərlər və onların formalaşmasında rolu olan amillər, onların şəxsiyyətinin formalaşmasına təsiri çoxcəhətli və kompleks bir məsələdir. Bu məsələnin araşdırılması uşaqların ailədə və sosial mühitdə özlərinin fərdi, intekllektual və terminal dəyərlərini müqayisə etməsinə, xüsusilə özlərinin rəftar və davranışların tənzimləməyə kömək edər.

Məhz bu kontekstdə uşaq ədəbiyyatı özünəməxsus psixoloji çalarlarla xarakterizə olunan məfkurə silahı və tərbiyə vasitəsidir. Bu bir həqiqətdir ki, sağlam məzmuna, siyasi-ictimai mündəricəyə, yüksək ideyaya, estetik hisslərə və psixoloji təsir gücünə malik olan uşaq yazıları vətəninə, ailəsinə, insanlara dəyər verən kamil və fədakar şəxsiyyətlərin formalaşmasına zəmin yaradır. Uşaq ədəbiyyatı dəyərlər sisteminin formalaşmasına təsir edən önəmli psixoloji tərbiyə vasitəsidir.

*Uşaq ədəbiyyatı və dəyərlər*. Bunlar bir-biri üçün prioritet olan anlamlardır. Əvvəla, ədəbiyyat psixoloji fikir tarixi üçün zəngin mənbədir, dəyərdir. İkincisi, uşaq ədəbiyyatı xalqın milli-mənəvi dəyər xəzinəsinin mühüm bir qismini təşkil edir. Deməli, uşaq ədəbiyyatı həm dəyərimizdir, həm də dəyərlərin formalaşması üçün mühüm amildir. "Uşaq tərbiyəsi insanlığın yaradılışı andan var olan, bəlkə də insanlığın özü qədər önəmli olan dəyərdir" (5, səh.4). Bu mənada uşaq ədəbiyyatının şəxsiyyətin dəyərlər sisteminin formalaşmasında psixoloji təsir məsələləri aktual problem kimi diqqəti çəkir. Digər tərəfdən, dəyər anlayışı, dəyərlərin formalaşmasına təsir edən amillər, ailə, həmyaşıdlar, mühit, şərait, KİV, İKT və s. bu kimi məsələlərlə bağlı uşaq ədəbiyyatlarının psixoloyi təhlili psixologiya elminin yeni materiallarla zənginləşməsinə əsas verir.

Şəxsiyyətindən asılı olmayaraq uşaq da, gənc də, yaşlılar da yaşadıqları mövcud mədəni-mənəvi mühitin təsirinə məruz qalırlar. Hər bir insanın fərdi mənəvi varlığı ilə daxil olduğu mənəvi mühit arasında heç də həmişə adekvat münasibət olmur. İnsan özünün mənəvi-psixoloji, estetik ehtiyaclarını həyatda ödəyə bilmədikdə, bu natamamlığı bədii ədəbiyyat və incəsənət hesabına tamamlamağa çalışır. Bədii ədəbiyyat, mətbuat, yaxud incəsənət sanki onun həmsöhbətinə çevrilir.

Bu baxımdan problem məzmun və mündəricəsi etibarı ilə bir neçə müddəaları özündə ehtiva edir. Bu müddəaların hər biri uşaq ədəbiyyatının qavranılmasının psixoloyi xüsusiyyətləri kontekstində önəmli bir sahəni əharə edir.

— Uşaq ədəbiyyatı şəxsiyyətin dəyərlər sisteminin formalaşmasına zəmin yaradır.

— Uşaq ədəbiyyatında ağıl və hisslərin sinxron inkişafı xüsusi dəyərləndirilir.

— Xarakter xüsusiyyətləri, aksentuasiya məsələləri uşaq ədəbiyyatında sistemli təsvir olunur.

— Uşaq ədəbiyyatında özünəməxsus uşaq tipləri təsvir olunur ki, bunların müasir dövrümüzdə ailə dəyərləri və milli mənəvi tərbiyə kontekstində aşılanması prioritet xarakter kəsb edir.

— Uşaq ədəbiyyatı millətlərarası (xalqlar) mədəniyyəti, tərbiyə edir və etnik xüsusiyyətləri əks etdirir, dəyərləndirir.

— Uşaq ədəbiyyatında Tanrı, vətən, ailə, insan anlamları şəxsiyyətlərarası münasibətlər kontekstində əsas dəyər kimi xarakterizə olunur.

Qeyd edilən bu komponentlərlə bağlı istər xarici ölkə, istərsə də Azərbaycan müəlliflərinin ədəbiyyatlarında psixoloji təhlillərə geniş yer ayrılmış, uşaqlarda dəyərləri formalaşdırmaga əsas verən məsələlər əksini tapmışdır. "Uşaq ədəbiyyatının cəmiyyətin tərbiyəsində və insan baxışlarının formalaşmasında misilsiz rolunu nəzərə alan qabaqcıl xalqlar onun inkişafına xüsusi əhəmiyyət vermiş, tərəqqisi yolunda vaxtlarını və sərvətlərini əsirgəməmişdilər" (3, səh.6). Bu mənada J.Vern, Ş.Perro, C.Svift, N.Nekrasov, L.Tolstoy, A.Bakıxanov, Q.Zakir, M.Ə.Sabir, H.Cavid, F.Köçərli, R.Əfəndiyev, A.Səhhət, A.Şaiq, Ömər Cızavoğlu, İbrahim Kıbrıs, Hasan Demir, Necati Cumalı və başqalarının bu xüsusda uşaq dünyası üçün yazıları mövcuddur. Hələ vaxtilə min bir əziyyət və zəhmət hesabına yazılan uşaq jurnalları "Dəbistan", "Məktəb", "Rəhbər", dərsliklər "Vətən dili", "Birinci il", "İkinci il", "Yeni məktəb", "Nəsihətül-Ətfal", müstəqil oxu kitabları "Xəzainül- Ətfal", "Hədiyyeyeyi-sibyan", "Saqqallı uşaq", "Buz", "Qurban bayramı və yaxud on gün riyazət", "Balalara hədiyyə" və s. bu kimi bü hekayələrdə tövlükdə uşaq dünyasının psixoloji mənzərəsi verilir, onların tərbiyəsi və şəxsiyyətinin inkişafı naminə böyük işlər görülmüşdür ki, bunlar da dəyərlərin formalaşmasına zəmin yaradır. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının ictimai-siyasi fikir tarixində "milli mədəniyyətin ifadəsi" hesab edilən və "maarifçilik" məfkurəsi kimi təşəkkül tapan

XIX-XX əsr mədəni həyatın canlanması, məktəb və təhsilin yeniləşməsi, maarif sahəsində dəyişikliklərin aparılması və bu xüsusda milli şüuru oyadıb dəyərlər formalaşdırmaq kimi bütün dövrlər üçün önəmli olan nailiyyətlərlə xarakterizə olunur. Məhz bu dövrdə Qori Müəllimlər Seminariyasının və onun Azərbaycan bölməsinin fəaliyyəti, yeni tipli məktəblərin Naxçıvanda, Şuşada, Şəkidə, Ordubadda, Lənkəranda, Bakıda və digər yerlərdə açılması, ümumilikdə təhsil hərəkatının dirçəlməsi psixoloji və pedaqoji çalarlarla diqqəti cəlb edir. Azərbaycan maarifçiləri müəllim olduqlarına görə pedaqoji fəaliyyətə və uşaq psixologiyasına yaxından bələd idilər. Bu mənada Azərbaycanda pedaqoji fikrin və xalq maarifinin bütöv bir dövrü onların adı və fəaliyyəti ilə bağlıdır. Azərbaycan maarifçilərinin zəngin irsində milli tərbiyənin elmi-metodik problemlərinin geniş əksini tapdığını nəzərə alsaq, Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyasında uşaq tiplərinin psixopedaqoji çalarlarının müasir dövrümüzdə aşılanmasının prioritet istiqamətlərdən olduğunu görərik. Qeyd etmək istəyirəm ki, bu düvrün məfkurə formasının təbliği, xüsusilə də əsərlərin təhlili uşaq yazıları, tipoloji təhlillər bütövlukdə şəxsiyyətin, o cümlədən uşaqların dəyərlər sisteminin formalaşması üçün zəruridir və zəngin mənbədir. Çünki şərqşünas alim İ.S.Braginskinin dediyi kimi "millilikdən kənar maarifçilik yoxdur" (7, s.310). Bu mənada Azərbaycan maarifçiliyinin psixoloji əsaslarının öyrənilməsi birbaşa milli şüurun oyanması, milli düşüncənin formalaşması tarixinin tədqiqinə xidmət göstərməklə dəyərlərimizin inkişafında da önəmli əhəmiyyət kəsb edir.

Uşaq ədəbiyyatı yaratmaq, onun vasitəsilə həyat astanasına qədəm qoyan körpələri, yeniyetmələri və gəncləri tərbiyə etmək, onlarda dəyərlər formalaşdırmaq, bu yolla sağlam bir cəmiyyətin təşkilinə nail olmaq amalı dünyanın mədəni xalqları arasında özünəməxsus yeri olan azərbaycanlıların da fikrini həmişə məşğul etmişdir. Bu gün uşaq ədəbiyyatı xalqımızın milli-mənəvi dəyər xəzinəsinin mühüm bir qismini təşkil edir. O, inkişafının bütün mərhələlərində yetişməkdə olan nəslin ağlını, ruhunu və təfəkkürünü qidalandırmış, şəxsiyyət tərbiyəsində psixoloji və pedaqoji problem kimi istifadə olunmuşdur.

Mədəniyyətlərarası əlaqələrin genişləndiyi müasir dövrdə azərbaycançılıq məfkurəsi müstəqil respublikamızın ideoloji atributunu təşkil edir. Odur ki, gənclər şəxsiyyətin sağlam düşüncə tərzi, əqli inkişaf səviyyəsinin yüksək olması üçün  uşaq ədəbiyyatı nümunələrinin olması zəruridir. Bu ilk növbədə uşaqlarda dəyərləri formalaşdırır. İnsan dəyər verdiyi hər hansı bir şeyə can atır, bu onun həyat fəaliyyətinin əsasında olunur, sosial aktivliyini gücləndirir.

**Məqalənin aktuallığı.** Sosial-psixoloji problemlərin genişləndiyi, informasiya texnologiyalarının günbəgün artdığı müasir dövrdə dəyərlər sistemi və bu sistemdə prioritet olan amillər aktuallığı ilə seçilir və tədqiqi zərurət tələb edir. Bu mənada nəzərə alsaq ki, uşaq ədəbiyyatı xalqın milli-mənəvi dəyər xəzinəsinin mühüm bir qismini təşkil edir, onda şəxsiyyətin dəyərlər sisteminin formalaşmasında uşaq ədəbiyyatının rolu aydın görünər. Deməli, uşaq ədəbiyyatı həm dəyərimizdir, həm də dəyərlərin formalaşması üçün mühüm amildir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə dəyər anlayışı açıqlanmış, şəxsiyətin formalaşmasına onun təsiri qeyd olunmuş və xüsusilə bu kontekstdə uşaq ədəbiyyatının rolu sistemli təhlil edilməklə araşdırmalar aparılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ali məktəb tələbələrinə mühazirələr zamanı, orta məktəb dərslərində, kurslarda seminarlaın təşkilində və milli tərbiyə proqramlarının işlənməsi nöqteyi-nəzərindən əhəmiyyətlidir. Dəyərlər və onların formalaşmasında ədəbiyyatın rolu ilə bağlı tədqiqatlarda  istifadə etmək kontekstində əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Bayramov Ə. Şəxsiyyətin təşəkkülünün aktual məsələləri. Bakı, 1996.
2. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı, 2006.
3. Məmmədov X.M., Həsənov A.M. Azərbaycan uşaq ədəbiyyatı (II hissə). Bakı, 2002.
4. Rzayeva N.T. Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası: Psixol.ü.fəls.dok. ... dok. Bakı, 2004.
5. Ciravoğlu Ö. Cocuq edəbiyyatı. İstanbul, 2000.
6. Kıbrıs İ. Cocuq edebiyyatı. Ankara, 2006.
7. Брагинский И.С. К вопросам о национальном своеобразии эпохи просвещение. // Просветительство в литературах Востока//. Москва, Наука, 1973.

**Н.Т. Рзаева**

## Психологическое влияние детской литературы на формирование системы ценностей личности в современную эпоху

## Резюме

Детская литература характеризуется специфическими психологическими оттенками. Детская литература, оказывая влияние на формирование ценностных ориентаций, является ведущим психологическим средством воспитания. Там понятия Родина, Бог, семья, дружба и человеческие ценности характеризуются в контексте межличностных отношений.

**N.T. Rzayeva**

## Psychological influence of children's literature on the formation of the value system of personality in modern times

## Summary

Children’s literature is characterized with the specific psychological shade. Children’s literature is the means of important psychological behavior influencing to system of values formation. In this article the God’s, the homeland’s, the friend’s and the human’s beings values are characterized in the context of inter personal relations.

**Redaksiyaya daxil olub:** 01.06.2020